

Əbülfət MƏDƏTOĞLU
abulfatm@box.az

# ÜRƏYİMƏ YAĞAN YAĞIŞ

## Heç dayanmağını istəmirəm

**Neçə gündür hava canımı elə sıxır ki, özümə yer tapa bilmirəm. Düşünürəm ki, əgər mən bu boyda şəhərə sığışa bilmirəmsə, onda görəsən, ümumiyyətlə, sığışa bildiyim yer olacaqmı? Elə bilməyin ki, bu, özünü ölçüsüz, hamıdan, hər kəsdən daha gərəkli saymaq kimi bir şeydi. Yox, sadəcə rəhmətlik Nəsimi "Mən bu cahana sığmazam" deyəndə bəlkə də elə mənim indi yaşadığım, indi keçirdiyim hissləri yaşayıb keçirirmiş. Nə bilmək olar?!.**

Belə götürəndə onsuz da insan həmişə çabalamaqda, nəyisə qurub yaratmaqda və yaxud da uçurub dağıtmaqdadı. Bu mənada harasa, nəyəsə sığmamaq hardasa bekarçılığın, avaraçılığın da göstəricisi kimi sayıla bilər. Təbii ki, bir qrup tərəfindən. Amma ağlı, dərrakəsi yerində olan bilir ki, insan daha çox hisslərini ram edə bilməyəndə, ürəyinin səsinə səs vermək imkanı olmayanda, təklənəndə, xatirələr ona güc gələndə, itirdiklərini düşünəndə və bir də özünü kimsəsiz sayanda daha çox sıxılır, daha çox özünə sığınır. Mən də bilmirəm yaşla bağlıdı, yoxsa içərisində olduğum həyatla, amma hər nədisə sıxılma baryerini artıq ötüb keçmişəm. Düzdür, o sərhədi kimsə mənim üçün müəyyən etməyib. Amma mən öz-özümə hesabat verməyi bacardığımdan anlayıram ki, bu səddi, bu baryeri keçmişəm və yəqin ki, bu nə vaxtsa Tanrıya xoş gəlməyəcək. Üstəlik, çevrəmdəki adamları da usandıracaq, bezdirəcək... Və bütün bunları bildiyim halda sıxılmaya bilmirəm. Çünki...

Hə, üç-dörd gündür ki, Bakının havası adamlara zülm edir və bu zülm elə bil ki, yerdən göyə körpü olan yağışa çevrilib. Ona görə də üstümüzə səpələnir. Yolda da, rizdə də, maşında da, evdə də, hər yerdə, hətta məzarda da fərq qoymur yağış, ələnir. Göylər bizim ona doğru yüksələn, ona gedib söykənən, ona bələnən nələrimiz varsa hamısını sıxır və suyunu yağışa çevirib qaytarır özümüzə. Özü də gah narın şəkildə, gah selləmə, gah da ki, doluya, qara çevirir...

Neçə gündür Bakıya yağış yağır və mən narın yağışın dəlisiyəm. Xoşlayıram narın yağışda gəzməyi. Üzüm aşağı axıb boynuma daman yağışa elə rahatlıqla təslim oluram ki, sanki ruhumu yuyur. Və mən bu yuyulan ruhumun işığına bürünüb o yağışla həmsöhbət oluram, yağışın dilini anlayıram... Yağış məni başa düşür... Bilir ki, onu anlayıram, ona ürəyimi açıram... ona sirlərimi deyirəm. Və soruşuram ki:

**Göyün xətrinə kim dəyib,**
**Kirimir, narın ağlayır.**

Doğrudan, heç ağlayanlara fikir vermisiniz? Bir küncə çəkilib xısın-xısın kirpiyini, yanaqlarını göz yaşına bələyən adamlara fikir vermisiniz? Söhbət onların yaşından getmir. O, uşaq da ola bilər, dəliqanlı da, yaşlı da. Söhbət onların ağlamağından gedir. Mən şəhid balasının, əl boyda uşağın yas mağarı küncündə necə səssiz ağladığını dəfələrlə müşahidə etmişəm... Mən söhbət edə-edə suallarımı cavablandıran şəhid bacısının, şəhid nişanlısının, şəhid anasının axan göz yaşlarına da baxa-baxa donmuşam... Mən öz anamın hələ Qarabağda nakam qardaşının başdaşını qucaqlayıb heç nə demədən o daşı sığallaya-sığallaya ağladığını da izləmişəm. Bax, bunlar və yaxud da qəlbinə toxunduğum qızımın öz otağına çəkilib üzünü gizlədərək yalnız çiyinlərinin tərpənişindən necə incikliyinin göz yaşına çevrildiyini də görmüşəm. Və onların hər birinin arxasında diqqət, ürək durduğunu unutmaq lazım deyil. Ancaq göyün canlı şəkildə tərənnüm edilməsi, təqdim olunması və kiminsə onun xətrinə dəyməsi milyonların, yağışın özü kimi çox orijinal, çox ürəyə yatımlıdı. Üstəlik...

**Bir tənha qoca ağlayır,**
**Kəsənə oxşamır yağış...**

Hə, gördünüzmü göy üzü necə tənha qocaya bənzədi. Və o tənha qocanın ömrü yağışa çevrildi. Narın-narın ələndi onu tənha qoyanların üstünə. Və elə ələnə-ələnə də onu tənha qoyanları sorğu-suala çəkdi. Həmin suallar da cavablarla birlikdə yenə bürünüb göz yaşına süzüldü üzü aşağı. Çünki o cavablar özü ilə bir xəcalət hissini də, bir haqqı etiraf etməyi də ortaya çıxarmışdı. Və günahkar olanlar haqqın önündə için-için, narın-narın ağlayırdılar...

Hə, elə bu yerdəcə öncə söylədiyim, yəni özümə aid etdiyim fikrə qayıdıram və görürəm ki:

**Xatirələr pərən-pərən**
**Bu yağış qəfil başlayıb.**

Görürsünüzmü, hansısa bir hərəkət, hansısa bir söz, hansısa bir toxunuş xatirələrə qaytarır səni, məni, bizi. Və biz o xatirələrin narın yağışına düşürük. Pərən-pərən olmuş buludlar kimi göy üzünə səpələnmiş xatirələrimiz əslində içimizdə bir himə bənd yağışdı. Və indi yağan bu narın yağış həmin o xatirələri təzədən diriltdir, təzədən canlandırır, təzədən yaşadır və bizimlə üzbəüz qoyur. Biz də...

**Narın yağış çətin kəsər,**
**Yolçu qərib, səsləyən kim?**

Doğrudan da hələ körpə yaşlarımda böyüklərimdən eşitmişdim ki, narın yağış uzun çəkir, uzunömürlü olur. Və hətta mənə belə demişdilər ki, narın yağış yol adamını bəzən hövsələdən də çıxarır. Çünki o nə yolunu davam etdirə bilir, nə də yoldan qalır. Ona görə də yol boyu onu izləyən yağışa bəzən etiraz edir. Bax, mən də bu şəhərdə bir qəriblik yaşadığım üçün bu narın yağışın çətin kəsəcəyini bilsəm də, onun damlaları altında gəzməyi bir rahatlıq hesab edirəm. İslanmaqdan, üstəlik islanmış paltarlarla evə dönəndə qarşılaşacağım baxışlardan bu məqamda heç kim məni çəkindirə bilməz. Axı:

**Ya bəxt, günəşli səhərə**
**Bu yağış nə gətirəcək?**

Bəli, hər kəs açılan səhərdən nə isə gözləyir. Xüsusilə yağışın yuyub təmizlədiyi, par-par parıldayan göy qurşağının altından keçəndə içindəkilərin çin olacağına dəli kimi inanırsan. Və elə bilirsən ki, məhz o göy qurşağı sənin üçündü, sənə görədi. Və sən də mütləq onun altından keçib göydən sənə gələn, sənə hədiyyə olan, sənin payına düşən o xoşbəxtliyə qovuşacaqsan. Təbii ki, burda bir sadəlövhlük var. Amma istək istəkdi də. Mən də bəxtimin üzünə bu yağışın bir nur çiləyəcəyinə ümidliyəm, inamlıyam. Çünki:

**Torpaq əsir, məzar qərib,**
**Yağdıqca içim dağılır.**

Deməli, mənim ümidim o narın yağışın altında mütləq göyərəcək. Göyərməyə də bilməz. Çünki əsir torpağı, daman məzarı biz xilas etməliyik. Narın yağış da, torpaq adamları bilir, yəqin ki, fikrimi təsdiq edərlər, əkiləni bitirmək üçündü... səpiləni göyərtmək üçündü. Elə bu ümidlə də altında gəzdiyim narın yağışın kəsməsini istəmirəm...

**... Və bu yazımla Bakıda yağan yağışın içimdəki sıxıntını yuyub apardığını sizə təqdim etdiyim Sona Vəliyevanın "Narın yağış" şeirinin fonunda əməlli-başlı hiss etdim. Və bir də hiss etdim ki, o yağış hələ də üstümə yağır - məni göyərtmək üçün!**

# ƏDƏBİ-NƏZƏRİ FİKİR TARİXİ HAQQINDA SANBALLI TƏDQİQAT ƏSƏRİ

**Tanınmış şair, ədəbiyyatşünas, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, filologiya elmlər doktoru, professor Rafiq Yusifoğlunu tələbəlik illərindən - 60-cı illərin sonlarından tanıyıram, indi də bir kafedrada işləyirik; belə demək mümkünsə, cavanlığımız və ahıllığımız bir yerdə keçir... Onun insanlığı, təvazökarlığı, həqiqətin, haqqın yanında olması, səmimiyyəti və obyektivliyi bir qələm və ürək dostu kimi həmişə məni qane edibdir. Hələ gənclik illərindən istedadlı bir qələm sahibi kimi tanımışam, uzun illər mətbuatda imzasını maraqla izləmişəm, haqqında yazmışam, fikir və münasibətimi bildirmişəm, istər şeirlərini, istərsə də elmi-publisistik məqalələrini, kitablarını məmnunluq hissi ilə oxumuşam...**

Aləmdə, yəni yaradıcılıq mühitində tanınan kəslərdən biridir. Şair kimi, xüsusən, uşaq dünyasına hakim olan şair kimi məşhurdur. Bir sözlə, müasir dövrümüzün maraqlı həyat və yaradıcılıq yolu keçən tanınan ziyalı şəxsiyyətlərindən biridir.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsində təhsil almışdır (1966-1970). Bir müddət Sumqayıt şəhərində müəllim işləyən şair AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aspiranturasına daxil olmuş, "Azərbaycan Sovet poemasının inkişaf problemləri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir (1984). Ümumiyyətlə Azərbaycan poema janrının problemləri onun tədqiqatının başlıca stixiyasını təşkil edir. Təsadüfi deyildir ki, Rafiq Yusifoğlu 2006-ci ildə "XX əsr Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri" mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri doktoru adını almışdır.

Ümumiyyətlə onun ədəbi-ictimai fəaliyyəti olduqca maraqlı və səmərəli olmuşdur və bu sayaq da, davam etməkdədir. 1985-ci ildən 1992-ci ilədək "Göyərçin" jurnalında söbə müdiri, 1992-ci ildən 1996-cı ilədək məsul katib, 1996-1997-ci illərdə Azərbaycan Dövlət Televiziyasının "Xəbərlər" baş redaksiyasında "Elm, mədəniyyət, incəsənət" şöbəsinin müdiri vəzifəsində çalışmışdır. 1997-ci ildən "Göyərçin" jurnalının baş redaktorudur. Şairin uşaq ədəbiyyatı sahəsində xüsusi fəaliyyəti vardır.

Hazırda Sumqayıt Dövlət Universitetinin və Azərbaycan Dövlət Pedaqoji Universitetinin professorudur.

O, gənc tənqidçilərin Moskvada keçirilən birinci (1982), ikinci (1985) və üçüncü (1988) Ümumittifaq seminarlarının, Qazaxıstanda keçirilən Beynəlxalq Uşaq ədəbiyyatı günlərinin (1989) iştirakçısı olmuşdur.

Ədəbi fəaliyyətə hələ orta məktəbdə oxuyarkən başlamış, 1966-cı ildən şeirləri, məqalələri ilə mətbuatda çıxış etməyə başlamışdır. Son illər bədii tərcümə ilə ciddi məşğul olur. Əsərləri bir sıra dillərə tərcümə edilib, dərsliklərə düşüb. Çoxlu mahnı mətnlərinin, elmi-publisistik məqalələrin müəllifidir. Əsərləri əsasında "Qəm karvanı", "Bütün Azərbaycan əsgər olmalı" televiziya tamaşaları çəkilib, dəfələrlə nümayiş etdirilmişdir. Bütün ömrünü, həyatını ədəbiyyata, onun tədqiqi və təbliğinə həsr edən Rafiq Yusifoğlu çoxşaxəli yaradıcılıq yolu keçən istedadlı qələm sahiblərindəndir. Onun istər poeziya, istər uşaq ədəbiyyatı, istər bədii tərcümə, istər jurnalistika, istərsə də ədəbiyyatşünaslıq sahəsindəki uğurları göz qabağındadır.

Rafiqin əllidən artıq şeir kitabı, elmi monoqrafiyası, dərslikləri vardır. İyirmi ilə yaxındır ki, respublikanın ali məktəblərində mühazirələr oxuyur və biz bu gün qarşımızda onun son ədəbiyyatşünaslıq-tədqiqat işi - "Ədəbi nəzəri fikrin inkişaf mərhələləri" (Bakı, "Elm və təhsil", 2016, 368 s.) kitabını əlimizdə dəstəvuz edərək Rafiq Yusifoğlunun həm bu tədqiqatından, həm də ümumiyyətlə ədəbi-nəzəri fikir dünyasından danışmaq, oxucularımıza elmi fəaliyyəti barəsində məlumat vermək istərdik...

Bəri başdan deyim ki, son vaxtlar belə samballı, yüksək nəzəri səviyyəli kitab oxumamışdım. Əsəri böyük zövqlə, azalmayan bir maraqla mütailə etdim... Əsər mənim içimdə məmnunluq hissi oyatdı. Tədqiqatın monumentallığı və əhatəliliyi onu da göstərir ki, Rafiq bu işi qısa müddətdə deyil, uzun illər boyu ciddi araşdırmalar və axtarışlar sayəsində hasilə gətirmişdir. Tədqiqat boyu elmi-nəzəri materialın əhatəliliyi, konkret nəzəri problemlər üzrə qruplaşdırılıb araşdırılması məqbul və xoşagələndir. Obyektiv və ayıq elmi münasibət, irəli sürülən mülahizələr, tezislər inandırır, dolğunluğu və aktuallığı ilə diqqəti çəkir.

Göründüyü kimi, Rafiq Yusifoğlunun bu monaqrafiyası da, aktual problemə həs edilibdir. Müəllif araşdırmalarını düzgün metedoloji əsasda qurduğundan, ədəbi-nəzəri fikrin inkişaf mərhələlərini dəqiq müəyyənləşdirdiyindən və hər mərhələni doğru qiymətləndirərək ətraflı izlədiyindən mövzu və problematika haqqında dolğun təsəvvür yarada bilmişdir. Beləliklə, biz o qənaətdəyik ki, prof. Rafiq Yusifoğlunun "Ədəbi nəzəri fikrin inkişaf mərhələləri" tədqiqat əsəri bu istiqamətdə boşluğu doldurmağa, ehtiyacı ödəməyə xidmət edir...

Yeri gəlmişkən, onu da qeyd edim ki, prof. Rafiq Yusifoğlunun bu istiqamətdə 15-ə qədər dəyərli tədiqat işləri də məlumdur.

Bu qədər faydalı əsərləri araya-ərsəyə gətirmək Rafiqin istedadından, tükənməz yaradıcılıq enerjisindən, zəhmətsevərliyindən xəbər verən danılmaz faktlardır. O, bu zəhməti və istedadı müqabilində "Qızıl qələm", "İlin ən yaxşı kitabı", "Araz", "Vətən" və s. ali ədəbi mükafatlarının laureatı kimi də mükafatlandırılmışdır.

Rafiq Yusifoğlu rəsmən elm aləminə 1979-cu ildə daxil olub və dediyim kimi, bu işə AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aspiranturasından başlayıb, görkəmli ədəbiyyatşünaslarla ünsiyyətdə olub. Ustadlarını, xeyirxahlarını unutmayan, qədirbilənliklə onları yad edən Rafiq yazır: "İndi dünyalarını dəyişmiş çox hörmətli ədəbiyyatşünaslarla - Mirzağa Quluzadə, Məmməd Cəfər, Əziz Mirəhmədov, Kamal Talıbzadə, Yəhya Seyidov, Qasım Qasımzadə, Əkbər Ağayev, Yaşar Qarayev, Şamil Salmanov, Arif Hacıyev, Kamran Məmmədov və başqaları ilə ünsiyyətdə olmağım ədəbiyyatşünaslıq elmi haqqında təsəvvürlərimi xeyli genişləndirdi. Aspiranturaya girməyimdə də, müdafiə edib elmi dərəcələr almağımda da, bu adamların bu və ya digər dərəcədə rolu olub. İndi onların hamısının ruhu qarşısında baş əyirəm."

Təsadüfi deyildir ki, bu adlarını çəkə bildiyi və çəkmədiyi müəllimləri, həmkarları, qələm dostları, tələbələri belə, onun şəxsiyyəti və yaradıcılığı barəsində qiymətli fikirlər və mülahizələr söləmişlər...

Fikrimizə sübut kimi, bir sıra tanınmış ədəbiyyatşünaslarımızın, lap elə, adi oxucularının onun tədqiqatları barəsində yazdıqları, söylədikləri fikirlərindən bəzi nümunələri oxucularımızın nəzərinə çatdırmaq istərdik.

Tələbəsi Çobanzadə Aynur: "Hörmətli Rafiq müəllim, əvvala Sizə öz adımdan dərin minnətdarlığımı bildirirəm ki, Rusiyada




doğulub-böyümüş bir insana öz doğma ədəbiyyatımızı sevdirdiniz. Siz "Ədəbiyyatşünaslığın əsasları" kimi gözəl bir dərslik işləyib hazırlamısınız. Nəzəriyyənin bütün incəliklərini öz kitabınızda əks etdirmisiniz. İnanın ki, bu, biz tələbələr üçün çox dəyərli bir kitabdır. Yəni ömürlük Sizdən bizə, bizdən də gələcək nəsilə bir xoş xatirə kimi qalacaq."

Müəllif-müəllim üçün tələbə və oxucu məktubundan da qiymətli qeyri bir şey tanımıram...

Elmi rəhbəri, filologiya elmlər doktoru, şair Qasım Qasımzadə: "...Poemalarda xarakter məsələsinə estetik yanaşmada müəllifin millilik kateqoriyasını ön plana çəkib problemi realizm baxımından qimətləndirməsi, eləcə də obrazların nə dərəcədə koloritli verildiyini aydınlaşdırması baxımından maraqlıdır və yenidir. ...Onun olduqca zəhmətsevər və zəkalı olduğu qənatinə gəlmişəm."

Filologiya elmlər doktoru, prof. Əkbər Ağayev: "Deyim ki, Rafiq bişmiş və ərsəyə gəlmiş, elmi tədqiqatın nə demək olduğunu dərk etmiş hazırlıqlı kadrlardandır."

AMEA-nın müxbir üzvü, filologiya elmlər doktoru, professor Yaşar Qarayev: "Əzizim Rafiq! Monoqrafiyanı zövqlə, azalmayan bir maraqla oxudum. Xüsusən yaxın keçmişin böyük epik ənənəsinə verilən təhlil və qiymət metedoloji cəhətdən tarixi-elmi əhəmiyyət kəsb edir."

Tanınmış ədəbiyyatşünas, filologiya elmlər namizədi, dosent Yaqub İsmayılov: "Mən Rafiq Yusifoğlunu 30 ilə yaxındır ki, tanıyıram. Rafiq müəllim yüksək insani keyfiyyətlərə malik bir ziyalıdır, zəhmətkeş alimdir, istedadlı şairdir. Onun "Azərbaycan poeması: axtarışlar və perspektivlər" monoqrafiyası, ali məktəblər üçün yazdığı "Ədəbiyyatşünaslığın əsasları", "Müasir ədəbi proses və ədəbi tənqid", "Uşaq ədəbiyyatı" dərslikləri çox faydalı və praktik əhəmiyyəti olan əsərlərdir."

Filologiya elmlər doktoru, professor Cəlal Abdullayev: "Mən Rafiqin bir cəhətini daha çox sevirəm. O da nədir? Rafiq kimi özündən əvvəlkiləri ehtiramla yad edən, hər kəsin öz qiymətini verən ikinci bir adam tanımıram."

Bu misalların sayını çoxaltmaq olar - Təhsin Mütəllibov, Vaqif Arzumanlı, Nazif Qəhrəmanlı, Kamran Əliyev, Qurban Bayramov, Vəli Osmanlı, Şamil Vəliyev, Alxan Məmmədov, Vaqif Yusifli, Allahverdi Eminov və onlarla başqaları, ən müxtəlif nəsilləri əhatə edən tənqidçi və ədəbiyyatşünaslar Rafiq Yusifoğlunun elmi yaradıcılığını yüksək qiymətləndirmişlər...

Mən bəndeyi-fəqir də, vaxtilə onun poema janrının sənətkarlıq xüsusiyyətlərinə həsr etdiyi elmi əsəri belə qiymətləndirmişəm: "Bu Rafiq müəllimin yeganə işi deyildir: o bu mövzuda fundamental doktorluq işi yazmış, bir neçə monoqrafiya, dərslik, çoxlu sayda məqalə, məlumat, tədqiqat tipli yazılar çap etdirmişdir. Bu kitab, xüsusən XX əsrdə Azərbaycan poemasının bir çox nəzəri və sənətkarlıq xüsusiyyətləri haqqında ətraflı təsəvvür yaradır".

Bunları niyə misal gətirdim? Əvvala bu fikirlər Rafiqin bir alim kimi şəxsiyyəti, elmi yaradıcılığı, tarixə baxışı, ədəbi fikir siferasında tutduğu yeri dürüst müəyyənləşdirməklə yanaşı, ona müasir ədəbi-elmi mühitin münasibətini bildirir. Bu fikirləri bir cəhət xüsusən birləşdirir - Rafiq Yusifoğlunun istedadını, daima axtarışa meyilliliyini, mühüm və çətin problemlərin həllinə səriştəli və cəsarətli münasibətini, sadəliyini, təvazökarlığını və s. alim-ziyalıya məxsus yaxşı nə varsa onu ehtiva edir...

Sonra da, Rafiq Yusifoğlunun qarşımızdakı kitabının sonuncu, "Əlavə" adlandırdığı hissədə onun barəsində qələm dostlarının fikirlərini verməsi həm qədrşünaslıqdır, həm də maraqlı bir formadır ki, biz də həmin hissədən istifadə edərək öz münasibətimizi bildirdik...

Ümumiyyətlə, müəllifin "Ədəbi-nəzəri fikrin inkişaf mərhələləri" monoqrafiyasının mündəracatı zəngindir və müəyyən elmi-nəzəri, tarixi-xronoloji sistemlə tərtib edilmişdir. Rafiqin bu kitabı-tədqiqatı da monumentallığı ilə seçilir. Ən qədim dövrdən bu günümüzə qədər ədəbi-nəzəri fikrin inkişafını mərhələlər üzrə izləmək, ümumiləşdirmək, qiymətləndirmək xüsusi hazırlıq və səriştə tələb eləyir.

Burada böyük və keşməkeşli, müxtəlif sosial-tarixi mərhələlərdən keçən, böyük tarixi dövrün məhsulu olan, müxtəlif nəzəri istiqamətləri əhatə edən, fərqli ədəbi-nəzəri üslublarda yazılan əsərlər, elmi-nəzəri baxışlar tədqiqata cəlb edilir, dünya nəzəri fikir kontekstində Azərbaycan ədəbi-nəzəri fikrinin təkamül yolu canlandırılır...

**Tam aşkar görsənir ki, müəllif Şərq və Qərb ədəbi-nəzəri fikrinin başlıca, əsas istiqamətlərini dərindən öyrənmiş, izləmiş, mövcud nəzəri ədəbiyyatdan sərf-nəzər etməmişdir. Fikrimizcə, müəllif qədim və orta əsrlərdən üzü bəri Şərq-Qərb ədəbiyyatşünaslığının, estetikasının, elmi-fəlsəfi təmayüllərin mühüm mənbələrinə istinadən, əslində, dünya ədəbi-nəzəri fikir tarixini yaradıbdır.**

**Tərlan Novruzov,**
**filologiya üzrə elmlər doktoru,**
**professor**

# Onu hər kəs "Canlı işıqfor" kimi tanıyır

**Xalid Musayev adını çoxları tanımayacaq. Azərbaycanda yeganə "Canlı işıqfor" kimi tanınan həmin şəxsdən söhbət gedir. 19 ildir bu peşə ilə məşğul olan Əmircan qəsəbə sakini ilk dəfə bu həvəsdən doğan fəaliyyətinə 1997-ci ilin noyabrın 27-dən etibarən başladığını söyləyir. Əslən qərbi Azərbaycandan olan Xalid Musayevin qardaşı Qarabağ müharibəsində şəhid olmuş qəhrəmanlarımızdan biridir. Çəkiliş apardığımız qəsəbədə elə həmin ərazidə ilk dəfə avtomobil yağları satmaqla başlayan qəhrəmanımızın yolun kənarında kiçik bir obyekti də var idi. Daha sonra bu işlə bərabər Xalid üzərinə təmənnasız, lakin özünün dediyinə görə çox məsuliyyətli və hələ uşaqlıq illərindən arzusunda olduğu bir vəzifəni götürməyə qərar verir. Xalid Musayevin "canlı işıqfor" adını alması və bu işlə məşğul olmasının çox maraqlı bir tarixçəsi var. Səmimi və mehriban tərzi ilə bizi özünün iş otağına dəvət edib söhbətə başladı:**

"Mən 97-ci ilə kimi bu yerdə yolun kənarında dayanıb avtomobil yağları satışı ilə məşğul idim. Hələ o vaxtlardan ağlıma belə bir ideya gəlməmişdən əvvəl yolun kənarında dayandığım üçün bəzən yolu keçə bilməyən uşaq və yaşlılara kömək edirdim. "Canlı işıqfor" adını da elə mənə həmin insanlar qoyub. Bir dəfə Aytən adlı kiçik bir qız yolun o tərəfində dayanmışdı və avtomobillər çox keçdiyi üçün yolu keçə bilmirdi və birdən həmin balaca qız məni "Canlı işıqfor" deyə səsləyib kömək istədi. Və ondan sonra bu adın məğzini dərk etdim və bu günə kimi bu işlə məşğulam. İllər sonra artıq yağ satışını dayandırdım və daha sonra bu iş otağı mənə verildikdən sonra burada həm də məktəbli ləvazimatları satmağa başladım. Bayramlardan birində hətta həmin ləvazimatları (dəftər, qələm çanta və s.) kiçik bir proyekt çərçivəsində yoldan keçən hər məktəbliyə hədiyyə olaraq vermişəm. Hal-hazırda isə nə yağ satışı ilə məşğulam, nə də məktəb ləvazimatları satıram. Sadəcə dünyada ən sevdiyim yeganə işimlə məşğul olan bir vətəndaşam".

Qəhrəmanımızın iş otağında isə yol hərəkəti qaydalarına aid demək olar ki, hər bir element gözə dəyirdi. Otağın ümumi görünüşü həm də kiçik sinif otağını xatırladırdı. Nazirlik tərəfindən Xalid Musayevə verilmiş müxtəlif geyim formaları və həmçinin yol hərəkəti qaydalarına aid nişangahlar və lövhələr, o cümlədən işıqfor vəsaitləri otaqda yer alıb. O, bunların tədris prosesində əyani vəsait kimi istifadə olunduğunu söyləyir. Otaq da həm də hər həftənin şənbə günün könüllü olaraq uşaqlara yol hərəkəti qaydalarının tədrisini aparır. Bundan əlavə qəsəbədə, yaxınlıqdakı orta məktəblərdən də ona dəstək gəldiyini və digər tədris fənlərini həmin




uşaq kollektivinə təmənnasız şəkildə öyrətmək istəyən müəllimlər mənə müraciət edib. Burada bəzi vaxtlar başqa fənlər də tədris edirik.

Yol polisi olmağı uşaqlıqdan bəri arzuladığını deyən Xalid hələ orta məktəbdə oxuduğu vaxtlarda sinif yoldaşlarına "Vaxt gələcək məni hər kəs tanıyacaq" deməsi onların gülüş hədəfinə çevrilmişdi. Qəhrəmanımız illər sonra həmin cümlənin real olduğuna inanır. Nəinki yerli, hətta xarici və dünyaca tanınmış "BBC", "Cihan" və s. telekanallar Xalid Hüseynov haqqında videoreportajlar hazırlayıblar. Yerli mətbuatda da onun haqqında kifayət qədər informasiya və reportajlar var.

Bizimlə müsahibə zamanı bir fikri də yoldan keçmək istəyən insanlarda idi. İş yerini də hətta elə bir mövqedədir ki, otağın pəncərəsi birbaşa insanların keçdiyi həmin piyada zolağı olan hissəni hədəf almışdı. Reportaj hazırlayan zaman bir neçə dəfə müsahibəni yarımçıq qoyaraq yolda onun gözləyən balaca məktəbli və yaşlıları keçirmək üçün iş başına qayıtdığının şahidi olurduq.

İllərdir öz peşəsinə olan sevgisindən danışan Xalid qeyd edir ki, dəfələrlə buna görə bəzi sürücülərlə mübahisəm yaranıb, hətta məni təhqir etdikləri hallar da yaşanıb, lakin mən onu bilirəm ki, bu işdə məni ruhlandıran vacib səbəblər var. Ən başlıcası isə yolun gördüyünüz bu hissəsində bir vaxtlar 13 məktəblinin avtomobil qəzası nəticəsində həyatını itirməsidir. Mənim olduğum 19 il ərzində bircə dəfə də olsun belə bir hadisə baş verməyib. Bəli, illərdir bu sənəti davam etdirirəm, çünki sevərək davam etdirirəm. Xalid - nə qışın qandonduran soyuğunu, nə də yayın qanqaynadan istisini tanımayan qəhrəmanımız bütün fəsillərdə yorulmadan və səbirlə öz işinin öhdəsindən gəlməyi bacarır.

**-19 il təmənnasız "Canlı işıqfor" olmaq sizi nə dərəcə də motivasiya edir?**

- Bu mövzuda danışarkən mən həmişə mətbuat nümayəndələrinə minnətdarlığımı bildirirəm, ümumiyyətlə ölkədə səsimin yayılmasında onların müstəsna rolu olub. Təbii ki, illərdir çalışmağım və zəhmətimin bu qədər maraq və səs doğuracağına şübhə etmirdim. 2007-ci ildə günlərin birində Suraxanı İcra Hakimiyyətindən mənə məktub gəldi və məni ora dəvət etdilər. İşimin və fəaliyyətimi dəyərləndirdiklərini bildirdilər. İcra başçısı İlqar Namazovun tapşırığı ilə mənə aylıq maaş verilməyə başlanıldı. Hal-hazırda 160 manat maaş alıram.

Əmək veteranı olduğunu söyləyən Xali Musayev 2-ci qrup əlilliyinə görə də aldığı məvaciblə və maaşla ailəsini dolandırır. 2 övladı var. Ümumiyyətlə fəaliyyətinin bir çox qurumlar tərəfindən, qeyri-hökumət təşkilatları tərəfindən dəyərləndirildiyini və həmin qurum rəhbərliklərindən ona tədbirlərlə bağlı və yeni işlə əlaqədar təkliflər gəldiyini qeyd edib: "Bakıda yerləşən iri şirkətlərdən aylıq 600 manat maaşı olan iş təklifləri almışam. Buna baxmayaraq mən onları qəbul edə bilməzdim. Çünki başqa bir işdə işləmiş olsam, qəsəbə sakinlərinin yol təhlükəsizliyi ilə bağlı məsuliyyətimdən əl çəkmiş olacaqdım. Mən bu yolda xidmətimə hörmətim və zəhmətimi dəyərləndirərək öz peşəmə sadiq qalmışam və qalacağam. Əgər başqa bir yerdə çalışmış olsam, bu gündəlik yoldan istifadə edən balaca məktəbli şagirdlərin və yaşlıların təhlükə ilə yenidən üz-üzə qalmalarına səbəb olacaq. Mənim də azyaşlı övladlarım var və onlar da məktəbə gedib-gəlirlər. Aylıq dolanışığıma görə isə həmişə şükür etmişəm.

### *"Nazirlə görüşəndən sonra həmin polis mənə zəng edib dedi ki..."*

"Canlı işıqfor" adını qürurla daşıdığını və bu günə kimi bu ada qeyri-sadiqlik göstərmədiyi bildirəm Xalid Musayev təkcə adi vətəndaşların deyil, bəzən patrul xidmətinin əməkdaşlarının avtomobilini də saxladığı üçün buna görə bəzi çətinliklər yaşadığını söyləyib: Bir neçə dəfə bu halla rastlaşsam da, hər dəfəsində öz öhdəmə düşən işi gördüyümü onlara sübut etmişəm. Patrul nümayəndələrindən biri bir dəfə xidməti maşınlarını saxladığım üçün mənimlə rişxəndlə mübahisə etdilər. Onlar mənə deyirdilər ki, sən kimsən ki, bizi saxlayırsan. Mən isə öz iş vəsiqəmi onlara göstərib vəzifəmin bu olduğunu söyləmişəm. Daha sonra cənab nazir Ramil Usubovun tədbirlərindən birinə məni dəvət etdilər. Orada görüşümüzün fotoşəkili yayılandan sonra həmin polis mənimlə əlaqə saxlayıb dedi ki, sənin işinə hörmət edirəm, bundan sonra sənə yaşıl işıqdır.

Müsahibələrin sonunda Xalid Musayev onunla görüşməyə gələn hər bir qonağı ilə keçən maraqlı söhbətlərindən sonra onun fikir və istəklərini yazması üçün "Fəxri qonaq kitabçasını təqdim edir. Bu dəfə mən də həmin kitabçada öz imzamı qeyd etdim.

**Rüfət Soltan**

# Homoseksual cütlüyə etiraz edən sahibkar 80 min dollar cərimələndi

**ABŞ-ın İllinoys ştatında homoseksual cütlüyə toy etmək üçün yer verməyən restoran sahibi 80 min dollar cərimələnib. Adalet.az Reuters agentliyinə istinadən bildirir ki, Todd və Mark Vaten cütlüyü nikah mərasimi üçün Timber Creek Bed & Breakfast otel-restoranına yazılı şəkildə müraciət edib. Restoranın sahibi Cim Valder belə anormal toya öz məkanında icazə verməyəcəyini sərt şəkildə ifadə edib. Bu da sahibkara 80 min dollara başa gəlib. Özlərini alçalmış hesab edən cütlük vaxt itirmədən əlaqədar orqanlara müraciət ediblər.**

Belə etiraza görə cərimələnmə ABŞ-da ilk hadisə deyil. 2015-ci



ilin dekabrında Sweet Cakes by Melissa konditer evi qeyri-ənənəvi orientasiyalı cütlüyə toy tortu hazırlamaqdan imtina etdiyi üçün nə az-nə çox 137 min dollar cərimələnmişdi. Ştat məhkəməsi insanların duyğu və seçimlərinin təhqir olunmasına görə belə yüksək cərimə kəsmişdi.

Xatırladaq ki, homoseksual nikahlara icazə ABŞ-ın bəzi ştatlarında 2011-ci ildən qanuniləşdirilmişdi. 2015-ci ilin iyunundan etibarən isə bu qanun ABŞ-ın bütün ştatlarına şamil olunub.

**Şəfiqə Şəfa**

# *Üzü tez qırışan insanlara xəbərdarlıq!*

**Üzü vaxtından əvvəl qırışmış insanlar dünyayla daha erkən vidalaşacaqlar.**

Adalet.az xarici mətbuata istinadən xəbər verir ki, belə bir bəyanatla amerikalı alimlər çıxış ediblər. Onlar iddia edirlər ki, üzün bədənin digər nayihələrinə nisbətən daha tez qırışması bir xəbərdarlıqdır. Sahibi bunun fərqinə varıb səhlənkarlıq etməzsə, vaxtsız qocalmanın qarşısını ala və ömrünü uzada bilər.

Alimlər bildirirlər ki, üz dərisi orqanizmin, xüsusilə daxili orqanların güzgüsüdür. Orqanizmdə baş verən bütün mənfi dəyişikliklər üzdə əks olunur. Məsələn, gözətrafı qırışlar, gözaltı torbalar uroloji problemləri əks etdirir, çənə və ağızətrafı bölgə yumurtalıqları, yanaq və ovurdlar mədə-bağırsağı, alın isə ürək və qan-damar sisteminin problemlərinə güzgü tutur. İnsan üzündə vaxtsız qırış və qızartıların fərqinə vardığı an dərhal hərəkətə keçməli və müayinə olunmalıdır.

Amma bu qırışların yaşlanma prosesi zamanı ortaya çıxan qırış-



larla əlaqəsi yoxdur. Əlli və daha artıq yaşı olan insanların üzünün qırışması təbii prosesdir.

**Şəfiqə Şəfa**

# *Belarusun xalq şairi vəfat edib*



**Belarusun xalq şairi, dramaturq, ədəbiyyatşünas, tərcüməçi Nil Qileviç 84 yaşında dünyasını dəyişib. Adalet.az Rusiya mətbuatına istinadən xəbər verir ki, bu barədə xalq şairinin ailəsi məlumat yayıb.**

Qileviç 1931-ci ildə Minsk vilayətində doğulub. 20 il ərzində Belarus Dövlət Universitetində müəllimlik edib. O, Belarus Yazıçılar İttifaqının ilk sədri olub. Bundan başqa, Respublika Ali Sovetinin Təhsil, Mədəniyyət və Tarixi Abidələrin qorunması üzrə daimi komissiyasının sədri olub.

Qileviç həm də əməkdar elmi xadimi idi. O, ilk belarus sonetlərinin müəllifi kimi ölkə tarixinə düşüb. Həmçinin çoxsaylı şeir toplularının, uşaqlar üçün poemaların müəllifidir.

**Şəfiqə Şəfa**

DƏDRX Gəncə Ərazi İdarəsi tərəfindən Kəpəz rayonu Kimyaçılar küçəsi, ev 11, mənzil 8-ə aid Axundova Səidə Həmid qızının adına verilmiş 27.07.2012-ci il tarixli 1512008356 saylı çıxarış və 202011001248-05101-093009 reystr nömrəli 20.07.2012-ci il tarixli texniki pasport itdiyi üçün etibarsız sayılır.

***

Gəncə şəhər Nizami rayon İcra Hakimiyyəti Başçısı tərəfindən Axundova Səidə Həmid qızının adına verilmiş 25.05.2012-ci il tarixli 114 saylı fərdi yaşayış evinin yerləşdirilməsinə (layihələşdirilməsinə) icazə verilməsi haqqında Sərəncam və 15.05.2012-ci il tarixli fərdi yaşayış evinin eskiz layihəsi itdiyi üçün etibarsız sayılır.

***

"VELRASA" MMC-yə məxsus 1400155861 saylı VÖEN itdiyi üçün etibarsız sayılır.

***

Rzaquliyeva Mehriban Hüseynağa qızının adına Sabunçu rayon Maştağa bələdiyyəsi tərəfindən verilmiş bələdiyyə sənədi itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
Qəzetdə "Olaylar" və APA İA-nın məlumatlarından istifadə olunur

Tiraj: 2500
Sifariş: 258
Çapa imzalanmışdır:
30.03.2016